F. Köçərli adına Respublika Uşaq Kitabxanası



# Ümumdünya Poçt Günü – İnsanları Birləşdirən Ünsiyyət Körpüsü

9 Oktyabr Ümumdünya Poçt Günü münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı – 2026**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**Ümumdünya Poçt Günü – İnsanları Birləşdirən Ünsiyyət Körpüsü** – 9 Oktyabr Ümumdünya Poçt Günü münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, 2026. – 38s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

**Poçt yalnız məktubları deyil, insanların sevgisini, hörmətini və xatirələrini də ünvanına çatdırır**




9 Oktyabr Ümumdünya Poçt Günüdür. Ümumdünya Poçt Günü Ümumdünya Poçt İttifaqının (ÜPİ) XIV konqresinin qərarı ilə 1874-cü ildə İsveçrənin paytaxtı Berndə yaradılıb. Bu tarix 1969-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən ÜPİ-nin konqresində elan olunub. Yarandığı vaxtdan ötən illər ərzində çox böyük tarixi inkişaf yolu keçmiş ÜPİ hazırda dünyanın, demək olar ki, bütün ölkələrini özündə birləşdirməklə, təkcə poçt sahəsində deyil, həm də beynəlxalq aləmdə vacib rolu olan və digər beynəlxalq təşkilatlarla sıx əlaqəli şəkildə fəaliyyət göstərən bir quruma çevrilib. ÜPİ həm də siyasi bir təşkilat olmaqla BMT-nin xüsusiləşdirilmiş idarəsi kimi fəaliyyət göstərir. Poçt sahəsinin iqtisadi inkişafda mühüm rolunu bir daha gündəmə gətirən bu bayram hər il dünyanın 150-dən çox ölkəsində müxtəlif formalarda qeyd edilir. Bu beynəlxalq bayramda bir çox poçtlar yeni məhsul və xidmətləri təqdim və ya təşviq edirlər. Bəzi poçtlar isə həmin gündə işçilərini yaxşı xidmətlərinə görə mükafatlandırırlar. Azərbaycanın da 1993-cü ilin aprel ayında bu quruma üzv qəbul olunması respublikanın poçt sahəsi üzrə fəaliyyətinin genişlənməsinə əlavə imkanlar yaradıb. Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra bir çox beynəlxalq təşkilatlarla yanaşı, 1993-cü ildən ÜPİ-yə üzv qəbul olunub və hazırda tamhüquqlu üzv kimi fəaliyyət göstərir. Müstəqil ölkə kimi ÜPİ üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, çox sürətli inkişaf yolu keçmiş və öz fəaliyyətinin ÜPİ-nin müəyyən etdiyi beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində mühüm uğurlar əldə edib. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkəmiz ÜPİ-nin 2004-cü ildə Buxarestdə keçirilən 23-cü Konqresində ilk dəfə olaraq, bu təşkilatın ali orqanı olan Administrativ Şuraya, 2008-ci ildə Cenevrədə keçirilən 24-cü Konqresində təşkilatın hər iki ali orqanına - Administrativ Şuraya və Poçt İstismarı Şurasına, 2016-cı ildə İstanbulda keçirilən 26-cı Konqresində isə yenidən Poçt İstismarı Şurasına üzv seçilib. Azərbaycan poçt administrasiyası 1991-ci ildə Regional Rabitə Birliyinə (RRB), 1992-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT), 2001-ci ildə Poçt və Telekommunikasiya Administrasiyalarının Avropa Konfransı təşkilatına (CEPT), "Azərpoçt"un filialı olan "Azərekspresspoçt" Rabitə Müəssisəsi isə 2002-ci ildən etibarən ÜPİ-nin EMS (sürətli poçt) Kooperativinin tamhüquqlu üzvlüyünə qəbul edilib. Bəşər övladı qədim zamanlardan bəri informasiya mübadiləsinə, məlumatların məsafədən-məsafəyə

ötürülməsinə daim ehtiyac duyub. İnformasiyanı ötürmək üçün insanlar qədimdə tonqallardan, qasidlərdən, öyrədilmiş xüsusi göyərçinlərdən və digər vasitələrdən istifadə ediblər. Azərbaycanda da yazılı məlumatların qasidlər vasitəsilə ötürülməsi qədim zamanlardan bəri mövcud olub. Lakin poçt rabitəsinin nizamlı dövrü 1501-ci ilə təsadüf edir. Müasir formada poçt isə XIX əsrin 1-ci qərinəsində bərqərar olur. Beləliklə, 1818-ci ilin iyun ayının 1-də Azərbaycan ərazisində ilk poçt rabitəsi yaradılır. İlk poçt kontoru respublikanın ikinci böyük şəhəri sayılan Gəncədə açılır. Daha sonra Bakıda və Naxçıvanda poçt ekspedisiyaları təşkil edilir.Azərbaycanda poçtun dəmir yol nəqliyyatı ilə daşınmasına 1883-cü il mayın 9-da Bakı-Tiflis, 1900-cü ildə isə Bakı-Dərbənd arasında başlanılıb. 2002-ci ilin əvvəlindən başlayaraq isə "Azərpoçt" magistral marşrutlarda avtomaşınlar vasitəsilə həyata keçirilən poçt daşınmalarını respublikanın bütün rayon mərkəzlərinə poçt göndərişlərinin və dövrü mətbuatın gündəlik saat 14:00-dək çatdırılmasını təmin edir. "Azərpoçt"un beynəlxalq sahədəki uğurlarından biri də ÜPİ-nin EMS Kooperativi tərəfindən sürətli poçt xidmətlərinin keyfiyyəti üzrə dünyanın 160-dan artıq poçt operatoru arasında keçirilən yarışlarda "Azərekspresspoçt" RM-nin ardıcıl 9 dəfə qızıl səviyyəli Sertifikatına layiq görülməsidir. Azərbaycanın ilk poçt markaları 1919-cu il oktyabrın 20-dən başlayaraq dövriyyəyə buraxılıb. İlk poçt markası Azərbaycan əsgərinə həsr olunub. Poçt ödənişi nişanı kimi birinci poçt markası 1840-cı ildə Böyük Britaniyada poçt dövriyyəsinə buraxılıb. Tezliklə bu hadisənin ardınca analoji poçt markaları başqa ölkələrdə, o cümlədən 1857-ci ildə Rusiyada da buraxılmağa başladı. O dövrdə Azərbaycan Rusiya İmperiyasının tərkibində olduğu üçün Azərbaycanda istifadə olunan birinci markalar Rusiyanın poçt markaları olub. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası elan edildikdən sonra Azərbaycan hökuməti tərəfindən poçt markalarının buraxılması haqqında qərar qəbul edilib. 1920-ci ildən 1923-cü ilədək olan dövr ərzində Azərbaycanın ərazisində sovet Azərbaycanının, Zaqafqaziya Federasiyasının, 1991-ci ilədək isə keçmiş SSRİ-nin markalarından istifadə olunub.1992-ci ildən Azərbaycanın poçt markaları tarixində yeni səhifə açılıb. Həmin il iyulun 14-də "Azərmarka" yaradılıb və 1992-ci ildən bu günə kimi orijinal süjetli poçt markaları hazırlanaraq çap edilir. Poçt markaları, Azərbaycan Respublikasının "Poçt haqqında" qanununa, Nazirlər Kabinetinin qərarına və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar



Nazirliyinin "Poçt ödənişi nişanlarının buraxılması haqqında Əsasnamə"yə uyğun olaraq buraxılır. Bu sənədlərin əsasında hər il növbəti ildə buraxılacaq poçt markalarının tematik planı işlənib hazırlanır. Poçt markaları poçt ödənişi nişanları olmaqla bərabər, eyni zamanda, ölkə haqqında müəyyən məlumat daşıyıcılarıdır. Bu amilə əsasən, tematik plan tərtib edilərkən tarix, arxitektura, görkəmli şəxsiyyətlər, flora və fauna, ölkənin tarixində əlamətdar hadisələr və başqa məlumatlara geniş yer verilir. Buraxılış tematikasında Azərbaycanın görkəmli şəxsiyyətlərinin mövzusu xüsusi yer tutur. Bu siyahıda Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevə həsr olunmuş poçt markalarını xüsusi qeyd etmək lazımdır. Bu mövzuda 12 marka və 9 poçt bloku buraxılıb. Poçt markaları vasitəsilə 20 Yanvar və Xocalı faciələri, həmçinin Qarabağın şəhərləri, onun flora və faunası haqqında dünyanın geniş kütlələrinə məlumatlar çatdırılır. Azərbaycan Respublikasının BMT-nin və Avropa Şurasının tərkibinə daxil olması, diplomatik münasibətlərin yaranması və sair üzrə beynəlxalq həyatdakı fəaliyyət mövzusu, buraxılış tematikasında mühüm yer tutur. Poçt markalarında Azərbaycanın müstəqilliyi mövzusu geniş qeyd edilir. Azərbaycanın birinci poçt markasından başlayaraq, bu günədək müstəqilliyə həsr olunmuş 10-dan çox poçt markası buraxılıb. Bununla yanaşı, dövlət atributlarına, ölkəmizin iqtisadi inkişafına, milli bayramlarına, görkəmli siyasi-ictimai xadimlərinə, beynəlxalq əhəmiyyətli mühüm tədbirlərə, Qarabağa aid poçt markaları çap olunaraq dövriyyəyə buraxılıb. Eyni zamanda, həmin markaların beynəlxalq aləmdə də yayımı təşkil edilib. Flora və fauna mövzusu geniş və müxtəlifdir, belə ki, bu mövzuda Şəki yasaqlığına və Azərbaycan meyvələrinə həsr edilmiş poçt markalarını qeyd etmək lazımdır. İran, Qazaxıstan, Meksika, Rusiya, Belarus və Ukrayna ilə bir neçə birgə markalar buraxılıb. 1919-cu ildən bu günədək Azərbaycan Respublikasında dövriyyəyə buraxılmış bütün markaların, "Birinci gün" zərflərinin, markalanmış zərflərin və poçt kartlarının, xüsusi ştempellərin nümunələrini özündə əks etdirən 8 kataloq nəşr edilib.

Bu dövrdə "Heydər Əliyev və Azərbaycan rabitəsi", "Azərbaycan rabitəsi müstəqillik dövründə 1991-2001" adlı kitablar və "İçərişəhər" haqqında, "Azərbaycan dövlət müstəqilliyinin 20 illiyi" ilə əlaqədar, "Azərbaycan gömrük muzeyinin xəzinəsi", "Eurovision Bakı-2012" mahnı müsabiqəsinə, "Qarabağ poçt markalarında" mövzusuna və "Birinci Avropa Oyunları"na həsr edilmiş markalardan ibarət kitablar hazırlanaraq çap olunub. Həmçinin IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş poçt markaları da dövriyyəyə buraxılıb. 1992-ci ildən filateliya sahəsi ölkəmizdə daha uğurla inkişaf etməyə başlayıb. Beləliklə, həmin dövrdən müxtəlif mövzulara aid 1140 poçt markası, 14 növ markalanmış, yüzlərlə növ markalanmamış poçt zərfləri

hazırlanaraq satışa çıxarılıb. Bundan əlavə, beynəlxalq təşkilatlar və dünyanın 12 ölkəsi ilə birgə 17 poçt markası da dövriyyəyə buraxılıb.

Yarandığı vaxtdan ötən illər ərzində çox böyük tarixi inkişaf yolu keçmiş ÜPİ hazırda dünyanın, demək olar ki, bütün ölkələrini özündə birləşdirməklə, təkcə poçt sahəsində deyil, həm də beynəlxalq aləmdə vacib rolu olan və digər beynəlxalq təşkilatlarla sıx əlaqəli şəkildə fəaliyyət göstərən bir quruma çevrilib. ÜPİ həm də siyasi bir təşkilat olmaqla, BMT-nin xüsusiləşdirilmiş idarəsi kimi fəaliyyət göstərir.

Poçt sahəsinin iqtisadi inkişafda mühüm rolunu bir daha gündəmə gətirən bu bayram hər il dünyanın 150-dən çox ölkəsində qeyd olunur. Bu beynəlxalq bayramda bir çox poçtlar yeni məhsul və xidmətləri təqdim və ya təşviq edirlər.

Azərbaycanın 1993-cü ilin aprel ayında bu quruma üzv qəbul olunması respublikanın poçt sahəsi üzrə fəaliyyətinin genişlənməsinə əlavə imkanlar yaradıb. Müstəqil ölkə kimi ÜPİ üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, çox sürətli inkişaf yolu keçib və öz fəaliyyətinin ÜPİ-nin müəyyən etdiyi beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində mühüm uğurlar əldə edib. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkəmiz ÜPİ-nin 2004-cü ildə Buxarestdə keçirilən 23-cü Konqresində ilk dəfə olaraq, bu təşkilatın ali orqanı olan Administrativ Şuraya, 2008-ci ildə Cenevrədə keçirilən 24-cü Konqresində təşkilatın hər iki ali orqanına - Administrativ Şuraya və Poçt İstismarı Şurasına, 2016-cı ildə İstanbulda keçirilən 26-cı Konqresində isə yenidən Poçt İstismarı Şurasına üzv seçilib.

Azərbaycan poçt qurumu 1991-ci ildə Regional Rabitə Birliyinə (RRB), 2001-ci ildə Poçt və Telekommunikasiya Administrasiyalarının Avropa Konfransı təşkilatına (CEPT), "Azərpoçt"un filialı olan "Azərekspresspoçt" Rabitə Müəssisəsi isə 2002-ci ildən etibarən ÜPİ-nin EMS (sürətli poçt) Kooperativinin tamhüquqlu üzvlüyünə qəbul edilib. "Azərpoçt"un beynəlxalq sahədəki uğurlarından biri də ÜPİ-nin EMS Kooperativi tərəfindən sürətli poçt xidmətlərinin keyfiyyəti üzrə dünyanın 160-dan artıq poçt operatoru arasında keçirilən yarışlarda "Azərekspresspoçt" RM-nin ardıcıl 9 dəfə qızıl səviyyəli Sertifikatına layiq görülməsidir. Azərbaycanın ilk poçt markaları 1919-cu il oktyabrın 20-dən başlayaraq dövriyyəyə buraxılıb. İlk poçt markası Azərbaycan əsgərinə həsr olunub.

Qeyd edək ki, Azərbaycan poçtunun da qədim tarixi var. 1818-ci ilin iyun ayının 1-də Azərbaycan ərazisində ilk poçt rabitəsi yaradılıb. İlk poçt kontoru respublikanın

ikinci böyük şəhəri sayılan Gəncədə açılıb. Daha sonra Bakıda və Naxçıvanda poçt ekspedisiyaları təşkil edilib. Azərbaycanda poçtun dəmir yolu nəqliyyatı ilə daşınmasına 1883-cü il mayın 9-da Bakı-Tiflis, 1900-cü ildə isə Bakı-Dərbənd arasında başlanılıb. Müstəqil ölkə kimi ÜPİ üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi, çox sürətli inkişaf yolu keçmiş və öz fəaliyyətinin ÜPİ-nin müəyyən etdiyi beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində mühüm uğurlar əldə edib. Müasir formada poçt isə XIX əsrin 1-ci qərinəsində bərqərar olur. Beləliklə, 1818-ci ilin iyun ayının 1-də Azərbaycan ərazisində ilk poçt rabitəsi yaradılır. İlk poçt kontoru respublikanın ikinci böyük şəhəri sayılan Gəncədə açılır. Daha sonra Bakıda və Naxçıvanda poçt ekspedisiyaları təşkil edilir.Azərbaycanın ilk poçt markaları 1919-cu il oktyabrın 20-dən başlayaraq dövriyyəyə buraxılıb. İlk poçt markası Azərbaycan əsgərinə həsr olunub.

**Ümumdünya Poçt Günü**

**Uşaqlar üçün qısa səhnəcik**



**Aparıcı:**
Salam, əziz qonaqlar! Bu gün biz Ümumdünya Poçt Gününü qeyd edirik. Poçt insanları bir-birinə yaxınlaşdırır, məktubları, açıqcaları və bağlamaları ünvanına çatdırır.

**(Poçtalyon çiynində çanta ilə səhnəyə daxil olur.)**

**Poçtalyon:**Salam, dostlar! Mən poçtalyonam. Hər gün müxtəlif ünvanlara məktub və bağlamalar aparıram. Mənim işim insanları sevindirən xəbərləri vaxtında çatdırmaqdır.

**Uşaq 1:**Bəs məktublar niyə vacibdir?

**Poçtalyon:**Çünki məktublar sevgi, hörmət və xoş arzular daşıyır. Hər məktubun öz hekayəsi var. **(Əlində zərf olan "Məktub" səhnəyə çıxır.)**

**Məktub:**Mən adi bir məktub deyiləm. Mən içimdə sevinc, salam və xoş sözlər gətirmişəm. Ünvanım düzgün yazıldığı üçün mən vaxtında sahibimə çatdım.

**Uşaq 2:** Deməli, ünvanı düzgün yazmaq çox vacibdir!

**Poçtalyon:**Bəli! Onda məktublar və bağlamalar rahatlıqla öz sahibini tapır.

**(Nənə səhnəyə gəlir.)**

**Nənə:**Mən nəvəmdən məktub almışam. Onun səmimi sözləri məni çox sevindirdi. Kağız üzərində yazılmış məktubun xüsusi dəyəri var.

**Aparıcı:**Poçt xidməti illərdir insanları bir-birinə bağlayır. Gəlin poçt işçilərinə zəhmətlərinə görə təşəkkür edək.

**Hamı birlikdə:**Əziz poçt işçiləri, bayramınız mübarək! Sizə sağlamlıq, xoşbəxtlik və uğurlar arzulayırıq!

**(Musiqi sədaları altında səhnəcik başa çatır.)**

Aşağıda Ümumdünya Poçt Günü mövzusunda məktəblilər üçün 10 sualdan ibarət test təqdim olunur.

Ümumdünya Poçt Günü hansı tarixdə qeyd olunur?

A) 1 iyun

B) 9 oktyabr

C) 18 may

D) 31 dekabr

Poçtalyonun əsas vəzifəsi nədir?

A) Kitab satmaq

B) Məktub və bağlamaları ünvanına çatdırmaq

C) Dərs keçmək

D) Mağazada işləmək

Məktubun ünvanına çatması üçün nə vacibdir?

A) Zərfin rəngi

B) Ünvanın düzgün yazılması

C) Kağızın qalın olması

D) Marka olmaması

Poçt vasitəsilə bunlardan hansını göndərmək olar?

A) Məktub

B) Açıqca

C) Bağlama

D) Hamısını

Poçt xidməti insanların nəyinə kömək edir?

A) Bir-biri ilə əlaqə saxlamasına

B) Yalnız oyun oynamasına

C) Televizora baxmasına

D) Musiqi dinləməsinə

Məktub göndərərkən zərfin üzərinə nə yapışdırılır?

A) Şəkil

B) Poçt markası

C) Oyuncaq

D) Stiker

Poçt işçilərinin əməyinə necə yanaşmaq lazımdır?

A) Hörmətlə

B) Laqeydliklə

C) Etinasızlıqla

D) Məzəklə

Poçt şöbəsində hansı xidmət göstərilir?

A) Məktub və bağlamaların qəbulu və göndərilməsi

B) Dərs keçilməsi

C) Film nümayişi

D) İdman yarışı

Poçt markasının əsas funksiyası nədir?

A) Məktubu bəzəmək

B) Poçt göndərişinin ödənişini göstərmək

C) Ünvanı yazmaq

D) Zərfi bağlamaq

Ümumdünya Poçt Gününün məqsədi nədir?

A) Poçt xidmətinin əhəmiyyətini tanıtmaq

B) Yeni il bayramını qeyd etmək

C) İdman yarışları keçirmək

D) Musiqi festivalı təşkil etmək

Cavab açarı:B;B;B;D;A;B;A;A;B;A

Aşağıda **Ümumdünya Poçt Günü** münasibətilə kitab, rəsm və ya əl işləri sərgisi üçün uyğun başlıq nümunələri təqdim olunur:

- "Məktubdan Ürəyə"
- "Poçt – Ürəkləri Birləşdirən Körpü"

- "Məktubun Sehirli Dünyası"
- "Poçt Dünən, Bu Gün və Sabah"
- "Sevgi Dolu Məktublar"
- "Ünvana Çatan Xoş Xəbərlər"
- "Poçt Xidməti – Etibar və Ünsiyyət"
- "Bir Məktubun Hekayəsi"
- "Poçt Markalarının Rəngarəng Dünyası"
- "Məktubun Sədası"
- "Poçtla Gələn Xoş Arzular"
- "Məktub Yaz, Sevinc Paylaş!"
- "Poçt – Keçmişdən Gələcəyə Körpü"
- "Məktubların Danışdığı Hekayələr"
- "Poçt: İnsanları Yaxınlaşdıran Xidmət"

Məktəb kitabxanası üçün daha rəsmi bir başlıq da seçə bilərsiniz:

Aşağıda **Ümumdünya Poçt Günü** münasibətilə istifadə oluna biləcək hikmətli və mənalı kəlamlar təqdim olunur:

- "Poçt insanları bir-birinə bağlayan görünməz körpüdür."
- "Ünvana çatan məktub, ürəyə çatan sevincdir."
- "Poçt xidmətinin gücü insanların bir-birinə olan bağlılığındadır."
- "Bir məktub bəzən min sözün deyə bilmədiyini ifadə edir."
- "Səmimi yazılmış məktub zaman keçsə də dəyərini itirmir."
- "Poçtalyon təkcə məktub deyil, xoş xəbər və ümid də gətirir."
- "Yazılan hər xoş söz bir gün sahibinə sevinc kimi qayıdar."
- "Ən gözəl məktub ürəkdən yazılan məktubdur."

- "Məktub ürəklər arasında qurulan ən səmimi körpüdür."
- "Poçt məsafələri deyil, insanlar arasındakı sevgini yaxınlaşdırır."
- "Hər məktub bir ümid, hər ünvan bir görüş arzusudur."

Tədbirdə istifadə etmək üçün bu aforizm də uyğundur:

*"Poçt yalnız məktubları deyil, insanların sevgisini, hörmətini və xatirələrini də ünvanına çatdırır."*

**Ümumdünya Poçt Gününə həsr olunmuş dəyirmi masanın planı**

Mövzu: "Poçt xidməti – insanları birləşdirən etibarlı körpü"

Məqsəd*:* Şagirdlərdə poçt xidmətinin tarixi və əhəmiyyəti haqqında bilik formalaşdırmaq.Məktub yazmaq mədəniyyətini və ünsiyyət bacarıqlarını təşviq etmək.Poçt işçilərinin əməyinə hörmət hissini aşılamaq.

Tədbirin gedişi

Ümumdünya Poçt Gününün qeyd olunma səbəbi haqqında qısa məlumat.

2. Mövzu üzrə çıxış

Poçt xidmətinin yaranma tarixi; Müasir poçt xidmətinin cəmiyyətdə rolu;Poçt işçilərinin məsuliyyəti və zəhməti.

3. Müzakirə sualları*:* Keçmişdə məktubların insanların həyatında rolu nə idi?; Elektron ünsiyyət dövründə poçtun əhəmiyyəti necə dəyişib?*;*Məktub yazmaq ənənəsini necə yaşatmaq olar?

4. Şagird çıxışları*:* Şeir və ya kiçik esse təqdimatı; Maraqlı faktların paylaşılması; Hazırlanmış təqdimat və ya posterlərin nümayişi.

5. İnteraktiv hissə

"Poçt haqqında nə bilirik?" adlı qısa viktorina.

Məktub və zərfin düzgün tərtib olunması üzrə praktik fəaliyyət.

6. Yekun*:* Müzakirənin nəticələrinin ümumiləşdirilməsi;Fəal iştirakçıların təşəkkürlə qeyd olunması;Poçt işçilərinin peşə bayramı münasibətilə təbrik.

Şüar:"Poçt – ürəkləri, insanları və dünyanı birləşdirən etibarlı körpüdür."

Azərbaycan ədəbiyyatında poçt, məktub və xəbər çatdırılması mövzusunu əks etdirən tanınmış əsərlərdən aşağıdakıları məktəb tədbirində təqdim edə bilərsiniz:

Poçt qutusu — Cəlil Məmmədquluzadə. Azərbaycan ədəbiyyatının ən məşhur hekayələrindən biridir. Əsərdə poçt qutusu və savadsızlıq mövzusu satirik şəkildə təsvir olunur. Bu hekayə milli realizmin mühüm nümunələrindən sayılır.

Məktub yetişmədi — Abdulla Şaiq. Vətəndən uzaqda yaşayan insanların məktub həsrəti və ailə bağlılığını təsirli şəkildə əks etdirən hekayədir.

Ölülər — Cəlil Məmmədquluzadə. Əsərin əsas mövzusu poçt olmasa da, məktub və yazışma motivlərindən istifadə edilir.

Danabaş kəndinin əhvalatları — Cəlil Məmmədquluzadə. Yazışma və xəbərləşmə motivləri əsərdə mühüm yer tutur.

Uşaq kitabxanasında Ümumdünya Poçt Günü münasibətilə sərgi təşkil edirsinizsə, ən uyğun və mövzuya birbaşa aid olan iki əsər bunlardır:Cəlil Məmmədquluzadə – Poçt qutusu*;* Abdulla Şaiq – Məktub yetişmədi Bu iki əsər həm poçt mövzusunu birbaşa əhatə edir, həm də məktəblilər üçün ədəbi və tərbiyəvi baxımdan dəyərli nümunələr hesab olunur.

**Cəlil Məmmədquluzadə. Poçt qutusu**



Noyabr ayının 12-ci günü idi. Hava çox soyuq idi. Amma hələ qar əlaməti görsənmirdi. Həkim axırıncı dəfə xanın naxoş övrətini yoluxub, cavab verdi ki, dəxi naxoşun əhvalı yaxşıdır; belə ki, bir həftəyədək səfərə çıxmaq mümkün olar. Xan çox tələsirdi İrəvana getməyə; çünki xanı orada çox vacib işlər gözləyirdi. Və bir də ki, qorxurdu qar yağa və hava dəxi də soyuya və naxoş üçün yola çıxmaq qeyri mümkün ola. Xan götürdü qələmi, irəvanlı dostu Cəfər ağaya bu məzmunda bir müxtəsər kağız yazdı:"Əzizim! Bir həftəyədək, ümidvaram, İrəvana gəlim övrət-uşaq ilə. Artıq-artıq təvəqqe edirəm, buyurasan bizim otaqlara fərş salıb, əlbəttə-əlbəttə peçləri yandırsınlar ki, otaqların havası pişəzvəqt təmizlənsin və isinsin, bəlkə naxoş üçün oradan narahatçılıq üz verməsin. Bu kağızın cavabını mənə teleqraf vasitəsilə yetirəsən. Sən mənə dediyin işlərin hamısını yerbəyer eləmişəm. Xudahafiz! Sənin xeyirxahın Vəli-xan. Fi 12 noyabr".

Xan kağızı bükdü qoydu paketə, üsyünü yazıb və markasını yapışdırıb, istədi nökəri çağırsın ki, aparıb salsın poçta; amma tez xanın yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu heyndə qapı döyüldü. Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi "İtqapan" kəndinin əhli Noruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfərdə Noruzəli əliboş gəlməmişdi; çünki xanı görcək əl ağacını dayadı qapının bucağına və başladı qapının o biri tayını açmağa. Qapını açıb bir yüklü ulağı sürdü həyətə "çoçi-çoçi" deyə-deyə və yükün arasından üç-dörd toyuq-cücəni çığırda-çığırda yerə qoyub, yükü açıb dolu çuvalları saldı yerə və xanın üzünə baxıb ikiqat əyilib salam verdi. Xan salamı alıb dedi:— A kişi, Noruzəli! Bu nə zəhmətdi, çəkmisən?

Noruzəli çuvalların kəndirini aça-aça cavab verdi: — Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...

Bu sözü, deyə-deyə Noruzəli başladı üstünün tozunu silməyə...çünki günortadan bir saat keçirdi və ola bilərdi ki, poçtun vaxtı keçsin, xanın ağlına belə gəldi ki, yazdığı məktubu versin Noruzəli aparıb salsın poçta.Xan üzünü tutdu qonağa:

— Noruzəli, poçtxananı tanıyırsan?

Noruzəli cavab verdi: — Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?
— Çox əcəb, nəçərnik divanxanasını ki, tanıyırsan?

— Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu. Keçən həftə mənim iki buzovum itmişdi. Getdim...

— Hələ bu sözləri sonra deyərsən. Qulaq as, gör nə deyirəm: nəçərnik divanxanasının qabağında bir yekə dam-daş var, qapısının ağzında bir qutu vurulub divara, haman qutu poçt qutusudu. O qutunun bir xırda və uzun qapağı var. Bu saat apar bu kağızı haman qutunun qapağını qovza, kağızı sal qutunun içinə, qapağını yatırt və tez qayıt gəl!

Noruzəli hər iki əlini açdı xanın qabağına, qorxa-qorxa kağızı aldı, bir az baxdı xanın üzünə, sonra çəkildi divara səmt və yerə əyilib istədi kağızı qoysun divarın dibinə. Xan ucadan dilləndi:

— Qoyma ora! Qoyma ora! Kağız çirklənər, tez apar sal qutuya, qoy gəl!

— Xan, başına dönüm, qoy bu ulağın başına torba keçirdim; heyvandı, ac qalmasın, yoldan gəlib.

— Yox, yox… Heç ziyanı yoxdu. Kağızın vaxtı keçir. Torbanı sonra keçirdərsən ulağın başına.

— Di elədə qoy ulağın qıçını bağlayım, yoxsa gedər həyətdə ağacları gəmirər.

— Yox, yox… heç eybi yoxdu, qaç tez, kağızı sal gəl!Noruzəli kağızı ehmal qoydu qoynuna və genə dedi:

— Xan, qadanı alım, bu xoruzlar qaldılar burda, heyvandılar, qoyaydın qıçlarını açıb, bir az dən səpəydim bulara. Elə dən də gətirmişəm.

Noruzəli əlini saldı cibindən dən çıxarsın… Xan ucadan səsləndi:

— Yox, yox!.. qoy hələ qalsın. Qaç, çaparaq kağızı sal poçta! Noruzəli əl ağacını götürüb, başladı uşaq kimi qaçmağı. Sonra bir zad fikirləşib qayıtdı və üzünü tutdu xana.

— Xan, qadanı alım, dəsmalın içində yumurta var, gözdə-qulaqda olun, yoxsa ulağ ağnar, yumurtaları sındırar.

Xan daha ucadan səsləndi:

— Daha uzun danışma. Qaç kağızı sal; vaxtı keçir.

Noruzəli istədi uzaqlaşsın, xan onun dalınca çığırdı:

— Noruzəli, bilməzsən kağızı verərsən özgəsinə ha!.. Heç kəsə vermə, heç kəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!

Noruzəli dəxi də ucadan cavab verdi:

— Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərnik də bu kağızı mənim əlimdən ala bilməz.

Noruzəli bu sözləri deyəndən sonra gözdən itdi… Xan girdi otağa və üzünü arvadına tutub şirin dillə dedi:  — Di hazırlaş, mənim gözümün işığı. Kağız yazdım İrəvana ki, otaqları sazlasınlar. İndi daha gedə bilərik. Maşallah yaxşısan. Həkim özü deyir ki, havanı dəyişmək səndən ötrü lap vacibdi.

Bir qədər də xan arvadı ilə getmək barəsində söhbət edəndən sonra nökəri gəldi və xana dedi:

— Xan, bu ulağ kimindi, bu şeyləri kim gətirib? – Xan cavab verdi:

— Ədə, o şeyləri yerbəyer elə! Onları bizə itqapanlı Noruzəli sovqat gətirib.

Nökər cücələri və yumurtaları apardı aşbazxanaya və ulağı sürüb qatdı töyləyə, qapısını örtdü, sonra gəlib un çuvalının birisinin ağzını açıb, içindəki undan bir çimdik götürüb, gətirdi tutdu xanın qabağına və dedi:

— Xan, yaxşı ağ undu.

Xan una baxandan sonra buyurdu nökərə küçə qapısını bağlasın və çörəyi çəkib gətirsin.

Çörəyin yeyilməyi iki saat çəkdi. Ancaq çörəkdən sonra Noruzəlinin kağızı poçta aparmağı xanın yadına düşdü. Xan nökəri çağırıb soruşdu və nökər cavab verdi ki, hələ kəndli poçtdan qayıtmayıb. Xan Noruzəlinin bu qədər yubanmağına təəccüb elədi və fikrinə gəldi ki, bəlkə Noruzəli kağızı poçta salıb özünü verdi bazara çörəkdən-zaddan alıb yesin və yainki bazarlığı-zadı var, eləsin. Bir saat da keçdi, Noruzəli gəlmədi.

Xan, nökəri çağırıb dedi ki, getsin poçta səmt və görsün harda qaldı Noruzəli və nə bais oldu ki, bu qədər yubandı. Yarım saat keçməmiş nökərqayıdıb cavab verdi ki, kəndlini görə bilmədi. Xan çıxdı balkona və bir papiros yandırıb başladı var-gəl eləməyə. Dəxi ona aşkar oldu ki, Noruzəlinin başına bir iş gəldi ki, bu qədər yubandı. Xan bu fikirdə idi – polis yasovolu dayandı qapıya və xanı görcək dedi:

— Xan, pristav buyurur gələsininz polsaya (polisə — red.) və kəntdinizə zamın olasınız. Yoxsa zamını olmasan, pristav göndərəcək navaxta (qazamat — red.).

Xan bu sözlərə o qədər təəccüb elədi ki, üzünü yasovulun üzünə tutub mat qaldı və heç bilmədi ki, nə desin. Sonra dilləndi:

— Balam, o kətdi bir fağır adamdı, o nə qayırıb ki, pristav onu tutub saxlayıb?

Yasovul cavab verdi:

— Daha mən heç zad bilmirəm. Ancaq özün polsaya buyursan, yaxşı olar; yoxsa yazıqdı o kişi.

Xan bu əhvalatı övrətinə bildirmədi ki, narahat olmasın. Geyinib getdi polisə və əvvəl akoşkadan dusdaqların damına baxıb gördü ki, yazıq Noruzəli bir neçə dustaqlar ilə oturub damın bucağında və uşaq kimi ağlayır, gözünün yaşını çuxasının ətəyi ilə silir...

Xan, Noruzəlinin əhvalatını pristavdan öyrənib və ona zamın olub kəndlisini saldı yanına və gətirdi evə. Noruzəli həyətə girən kimi başladı ağlamağa və saman torbasını ulağın başına keçirdib çömbəldi divarın dibində. Xan girdi evə və bir papiros yandırıb çıxdı balkona, Novruzəlini yanına çağırıb dedi:

— Di indi əhvalatı nağıl elə, Noruzəli! Sənin bu hekayətin çox şirin hekayətdi. Kitaba yazılmalıdı. Nağıl elə təfsilən; yəni hamısını birbəbir. Başla burada kağızı götürüb aparmağından, ta dama düşməyinə kimi...

Noruzəli durdu ayağa, xana yavıqlaşıb və çuxasının ətəyi ilə gözünün yaşını silib başladı:

— Başına dolanım xan, məni çövür balalarının başına, məni bağışla! Mənim heç bir günahım yoxdur. Bir kətdi adamam, mən nə bilirəm kağız nədi, qutu nədi, poçt nədi? Başına dönüm, xan, məni çövür o gülüzlü balalarının başına. Heç ziyanı yoxdu, həyə ölmənəm, sağ qalaram, qulluq elərəm, əvəzi çıxar,bir qələtdi eləmişəm, ta neyləmək? İşdi belə oldu. Bular hamısı allahdandı. Gərək belə olaymış. Bağışla məni, xan. Mən ölənə kimi nökərəm sənə...

Bu sözləri deyib, Noruzəli bir az da yavıqlaşdı xana və istədi onun ayaqlarından öpsün. Xan bir az dala çəkilib dedi:

— Noruzəli! Heç ürəyini sıxma. Mən sənə nə deyirəm ki? Sən mənə nə pislik eləmisən ki, mən səni bağışlayım?

— Qurban olum sənə, bundan artıq daha nə pislik olacaq? Kağızı əlimdən verdim o kafir oğlu kafirə qoydu cibinə, çıxdı düzəldi yola, qoydu getdi.

— Kim kağızı qoydu cibinə, qoydu getdi?

— O kafir oğlu urus, dana!

— Hara qoydu getdi?

— Getdi girdi orada bir yekə dam-daş vardı ki, qapısına qutu vurulubdu, getdi girdi ora.

Xan bir qədər duruxdu:— Bəs sən kağızı qutuya salmadın?

— Necə ki, salmadım! Elə kağızı qutuya salan kimi, kafir gəlib qutunu bilmirəm nə təhər açdı, kağızı götürdü apardı.

— Qutuda sən saldığın kağızdan başqa ta özgə kağız yox idi?

— Necə ki, yoxdu? Çox kağızlar vardı. Elə onların hamısını yığışdırıb apardı.

Xan qah-qah çəkib güldü.

— Yox, Noruzəli, gərək hamısını nağıl eliyəsən başdan axıra kimi: necə kağızı apardın, necə saldın qutuya və nə üstə urusla savaşdın.

Noruzəli başladı.

— Xan, başına dönüm, mən kağızı buradan apardım, getdim çıxdım nəçərnik divanxanasının yanına. Sən mənə nişan verdiyin dam-daşı tapdım və qutunu tapdım, getdim qutunun qapağını qaldırdım. İstədim kağızı salam qutuya; bir kağıza baxdım, bir qutuya baxdım. Doğrusu, qorxdum ki, sənin mənə qeyzin tuta. Doğrusu, bilmədim salım, salmıyım; çünki yadımdan çıxdı səndən soruşum ki, kağızı qutuya salandan sonra durum qutunun yanında, ya qoyum gəlim evə. Fikirləşdim ki, əgər kağızı salım, durum qutunun yanında havədəyədək durum. Axı qurbanın olum, xan, özün gördün ki, ulağı ac qoydum getdim, cücələri qıçı bağlı qoydum. Bir tikə un gətirmişdim. Hələ indiyə kimi də qalıb burda. Xan, başına dolanım, qoy elə indi yaxşı vaxtdı, qoy nökər gəlsin bu çuvalları götürək qoyaq evə, yağış-zad yağar, un islanar.

— Yox, Noruzəli, sənin işin yoxdu… De, de sonra necə oldu?

— Kağızı salmadım. Qutunun qapağını örtdüm, çəkildim durdum bir az kənarda. Əvvəl istədim qayıdıb gəlib səndən soruşum; sonra, doğrusu, qorxdum mənə qəzəbin tuta. Doğrusu, qorxdum öz könlündə deyəsən ki, Noruzəli çox heyvan adamdı, çox eşşək adamdı. Qərəz çömbəldim divarın dibində ki, bir az yornuğumu alım. Aha, gördüm ki, bir erməni uşağı, olardı bax bu boyda, olardı on iki-on üç yaşında, gəldi, getdi düz qutunun yanına, qapağını qalxızdı və sən mənə verdiyin kağız kimi bir kağız saldı qutuya, qapağını örtdü, düz qoydu getdi işinə. Nə qədər o nainsafı çağırdım soruşum ki, desin görək bəs kağızı qutuda qoyub hara gedir, bilmirəm dilimi anlamadı, nədi ki, heç cavab vermədi; heç zalım oğlu üzümə də baxmadı. Elə erməni uşağı uzaqlaşmışdı bir urus arvadı tez-tez gəlib qutuya yavıqlaşıb, bir kağız saldı, qoydu getdi. Ta indi mən bir az ürəkləndim, ta dedim vallah görükən budu ki, elə bu qutuya salınan kağızlar gərək qalsınlar qutunun içində. Mən o qədər ürəkləndim ki, bismillah deyib, cürətnən getdim qutunun qapağını qaldırdım, kağızı saldım qutuya, çöndüm gəldim qulluğuna. Qutudan elə buradan ora kimi uzaqlaşmışdım ki, haman urus gəldi yetişdi qutunun yanına. Mən əvvəl elə bildim ki, bu da istiyir qutuya kağız salsın. Amma gördüm xeyr, lotunun fikri özgədi, qutunun yanından sağ əlini uzadıb qutunun içinə. Mən əlüstü duydum ki, hərif istəyir kağızları oğurlasın… Xan çox baş ağrısı verirəm, məni bağışla, oğlana buyur gəlsin məni yola salsın, bivaxtdı, gedib kəndə yetişə bilmənəm.

— A kişi, hələ hara qoyuram səni gedəsən. Nağıl elə görüm sonra necə oldu?

— Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!.. Bəli, gördüm ki, hərif utanmaz-utanmaz kağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Qutunun qapısını örtüb, istədi düzəlsin yola. Mən tez qaçıb yapışdım urusun qolundan, qoymadım getsin. Dedim, ay aşna, hara aparırsan kağızları? Xalq səndən ötrü kağızları bura salmıyıbdı ki! Dinməz-söyləməz üzünün suyunnan xalqın kağızlarını qoy yerinə! Dedim Noruzəli hələ ölmüyübdü ki, sən onun ağasının kağızını aparasan. Belə işlər yaxşı deyil, adam özgənin malına tamah salmaz. Məgər sizin şəriətdə oğurluq günah yazılmayıbdı?

Xan, məni çövür balalarının başına, məni mürəxxəs elə, qoyun gedim: bivaxtdı, hava qaranlıqlayır.

— Hələ tələsmə, gedərsən… Sonra necə oldu?

— Qoy görüm harda qaldım… Ədə, qoyma-qoyma, ulağ tənəkləri sındıracaq.




Noruzəli istədi qaçsın ulağın yanına, xan qoymadı.

— Noruzəli, getmə, hələ getmə. De görüm sonra necə oldu?

— Ta necə olacaq? Nə qədər yalvardım, yapışdım ki, mənim xanım məni öldürər. Dedim barı mənim xanımın kağızını ver; illah dedi ki, vermənəm. Gördüm ki, hərif istəyir qoya qaça. Vallah hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçərnik divanxanasından saldatlar tökülüb məni döyə-döyə aparıb atdılar dama. Sənin qədəmlərinə belə mən qurban olum. Sən olmasaydın məni indi çoxdan göndərmişdilər Sibirə; çünki damda məndən savayı bir neçə dustaq vardı, mənə dedilər ki, o urus qulluq adamıdı. Ta… mən neyləyim? Xan, başına dolanım, di gör günah kimdədi?

Xan çox güldü, çox qah-qah çəkib güldü.

Hava qaranlıqlaşmışdı. Noruzəli boş un çuvallarını ac ulağın üstünə salıb, ulağı qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndinə.

Üç gündən sonra xana İravandan teleqraf çıxdı ki, “kağızın yetişib və otaqlar hazırdı”. Xan yığışıb getdi İravana.

Ay yarımdan sonra Noruzəlini divana gətirib “qulluqçunu bihörmət eləmək barəsində” üç ay navaxt kəsdilər; amma Noruzəli günahını boynuna almadı. Hələ üç ay da keçdi ancaq bu xəbər İravanda Vəlixana çatdı. Xan bir qədər fikir elədi.

"Poçt qutusu"https://www.youtube.com/watch?v=U9XagA8XC2M

Cəlil Məmmədquluzadənin Poçt qutusu əsəri əsasında səhnəcik



Aparıcı:XIX əsr Azərbaycan kənd həyatından bəhs edən bu əhvalatda sadə kəndli Novruzəli poçt qutusu ilə qarşılaşır. O dövrdə poçt xidməti yenilik idi və insanlar onun qaydalarını yaxşı bilmirdilər.

Səhnə 2(Xan əlində məktubla gəlir.)

Xan:Novruzəli, bu məktubu götür və poçt qutusuna sal. Vacib xəbərdir.

Novruzəli:Baş üstə, xan! Amma görəsən, bu qutu mənim məktubumu itirməz ki?

Xan:Narahat olma, poçt qaydası belədir. Məktub öz ünvanına gedəcək.

(Novruzəli səhnəyə daxil olur.)Ay camaat, bu nə qəribə qutudur belə? Nə qapısı var, nə də sahibi görünür. Görəsən, bunun içində nə saxlayırlar?

Kəndli 1:Deyirlər, buna məktub atırlar. Sonra poçt işçiləri aparıb ünvanına çatdırırlar.

Novruzəli:Məktub? Kağız parçası necə gedib sahibini tapar? Mən buna bir baxım.

Kəndli :Novruzəli, niyə burada dayanıb gözləyirsən?

Novruzəli:

Mən gözləyirəm ki, məktubum çıxıb getsin. Birdən kimsə aparar!

Poçt insanları bir-birinə bağlayan mühüm xidmətdir. Bu hadisə bizə öyrədir ki, yenilikləri öyrənmək, savadlı olmaq və dünyanı dərk etmək vacibdir.

**"Məktub yetişmədi" Abdulla Şaiq**




Qışın dondurucu bir günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər yaslı adamlar kimi qara çarşaba bürünmüş, dağlar, çöllər ağ kəfənlə örtülmüşdü.

Qurban Şeytanbazar ağzında, məktub yazan həmşərisi Molla Fərzəlinin yanında oturmuşdu. Soyuqdan əlləri və üzü bozarmışdı. Bir əli ilə yırtıq paltarının açıq yaxasını tutaraq:– Molla, mənə bir məktub yaz! Bilirsən ki, hər il sənə nə qədər xeyir verirəm. Vətəndən gəldiyim bir il olmaz, artıq sənə beş məktub yazdırıram, – dedi.

Molla Fərzəli soyuqdan donmuş əllərini ovuşdurdu. Əsnəyə-əsnəyə bir kağız parçasını dizi üstünə alaraq:– Həmşəri, nə yazılacaq? – dedi.

Qurban Molla Fərzəliyə bir az da yaxınlaşdı. Gizli bir söz söyləyirmiş kimi pıçıldayaraq dedi:– Molla, əvvəlcə məndən uşaqların anasına salam yaz. Yaz ki, Anaxanımın, Məmişin gözlərindən mənim əvəzimdən öpsün, onlardan göz-qulaq olsun. Sonra yaz ki, mən də, şükür Allaha, sağ və salamatam. Qulamrza ilə sizə on beş manat göndərdim. Bayramqabağı yenə göndərəcəyəm, uşaqlar korluq çəkməsinlər, özüm də yazın axır ayında gələcəyəm.

Molla Fərzəli qələmi mürəkkəbə batırıb yazmağa başladı. Qurban dedi:– Molla əmi, yaman adamın quyusunda işləyirəm, quyu indi otuz sajından aşağı enib, nə qədər yalvarırıq ki, "Ay ağa! Haqqımızı bir az artır, çünki aşağıya getmək çox çətindir, neftin, qazın iyindən nəfəsimiz tutulur", zalım oğlu razı olmur. "Əvvəlki şərtimizlə qazacaqsınız, yoxsa haqqınızı verməyəcəyəm", – deyir. Molla, burada pul qazanmaq çox çətindir.

Molla Fərzəli məktubu yazıb bitirdikdən sonra büküb zərfə qoydu və üzünü Qurbana tutub: – Həmşəri, zərfin üzü kimin adına olacaq? – deyə soruşdu.

Qurban əli ilə boynunu ovuşdura-ovuşdura:– Hə, molla, yaz ki, Qurbanın uşaqlarının anasına yetişəcək.

Qurban əli ilə qoynundakı məktubu bərk tutaraq yeriyirdi. O indi həmşərisi Qulamrzanın mənzilinə gedib, həm məktubu ona vermək, həm də dilcavabı bir-iki söz sifariş etmək istəyirdi. O, ayaqları altında xışıldayan qarın üzərinə birdən-birə üzüqoylu düşdü, ölgün və üzgün halda başını qaldırdı. Qabağında izdihamı yarıb keçən faytonları, isti paltarlı, şən sifətli insanları qəzəbli nəzərlərlə süzdü. İxtiyarsız olaraq, solğun dodaqlarından bütün əzab və qəmlərinə tərcüman olan bir "of" uçdu. Özünü doğruldaraq düşdüyü yerdən qalxdı. Tez əlini qoynuna soxdu və məktubu yanıq ürəyi üzərinə sıxaraq yeridi. Bir az sonra Qulamrzanın mənzilinə yetişdi. Qapı bağlı idi… Qəmgin və fikirli halda geri döndü və yolda həmşərisi Səftəri gördü. Ona yaxınlaşaraq əhval soruşdu. Məlum oldu ki, Qulamrza şəhərə getmişdir.

Qurban Səftərə söylədi:– Qulamrza qayıdanda mənim gəldiyimi ona de, tapşır ki, məni görməmiş getməsin. Amanatım da, dilcavabı sifarişim də var.

Bunu deyib Qurban mənzilinə qayıtdı.

… – Namərdlər, alçaqlar, nə qədər ki quyu dərinləşməmişdi, mən baş idim, onlar quyruq. Hər tərəfə dönsəm, onlar da o səmtə sürünürdülər. İndi ki quyu dərinləşib, mənə baş olmaq istəyirlər. "Quyu dərinləşib, ölüm ayağı var", – deyə hər gün təzə şərt qoyurlar.

Tanrıverdi və Səfər çəkdikləri torpağı boşaldıb yenidən dolu quyuya buraxdıqdan sonra Tanrıverdi:– Ay ağa, – dedi, – bilirsən ki, quyunun indi çətin vaxtıdır, əjdaha kimi ağzını açıb qurban istəyir.

Səfər Tanrıverdinin sözünü kəsdi:– Bax bu yerlərin hər guşəsinə ayaq bassan, hər ovuc torpağına qazma vursan, işçi sümüyü görərsən, işçi fəryadı eşidərsən.

Hacı Qulu ayaqlarını yerə çırparaq bağıra-bağıra:– Canınız çıxsın, – dedi, – pul qazanmaq asandır? Siz canınızdan keçirsiniz, biz də ətəkətək pulumuzdan.

Tanrıverdi həyəcanla qışqırdı:– Səfər! Səfər! Qurban ipi tərpədir.Səfər və Tanrıverdi tez quyunun ağzına yüyürdülər. Başlarını aşağı dikərək baxırkən, quyu içində partlayan qazın gurultusundan diksinib çəkildilər. Hər ikisi həyəcanlı bir səslə:- Allah özü bağışlasın. Qurban da belə getdi, - deyə fəryad qopardılar. Hacı Qulu bir şey eşitmirmiş kimi, qorxa-qorxa quyunun ağzına gəldi və ehtiyatla quyunun yanına uzanıb diqqətlə baxdı. Birdən-birə gözlərində, üzündə daşqın bir sevinc qığılcımları,

dodaqlarında məmnuniyyəti andıran bir təbəssüm olduğu halda uca səslə:- Çeşmənin başı açıldı, yavaş-yavaş neft qaynayır, - dedi.Tanrıverdi soyuq və laqeyd bir tövrlə:

- Hacı, Qurbanın meyiti quyuda qalacaq? - deyə soruşdu.

Bu sözdən Hacı Qulu şirin yuxudan oyanmış kimi oldu. Göz qapaqları iri-iri açıldı. Kisəsindən iki iyirmi beşlik çıxarıb:- Kim bu işi görsə, bu əlli manat onundur, - dedi.

Tanrıverdi quyuya yaxınlaşdı və neftin qaynayıb qalxdığını görüncə:- Yazıq Qurban, sən qəbrini öz əlinlə qazdın, - dedi.

Hacı əlli manatı onlara verib dedi:- Bu əlli manat sizin olsun, bölüşün, ancaq bu işi ağzınızdan qaçırmayın.

Səfər soruşdu:- Ağa, bəs paltarı nə olacaq?

Hacı əlini onun çiyninə qoyaraq, yağlı bir dil ilə:- Onu da buralarda bir yer qazıb basdırın, - dedi.

Səfərlə Tanrıverdi Qurbanın paltarını yığışdırıb götürərkən, arasından yerə bir məktub düşdü. Məktubun üzərində: "Bu məktub Qurbanın uşaqlarının anasına yetişəcək" cümləsi yazılmışdı.Səfərlə Tanrıverdi bir müddət məktubu acı nəzərlərlə süzərək: "Yazıq Qurban, məktub yetişmədi" - deyə inlədilər.

Səfərlə Tanrıverdi Qurbanın paltarını yığışdırıb götürərkən arasından yerə bir məktub düşdü. Məktubun üzərində: “Bu məktub Qurbanın uşaqlarının anasına yetişəcək” cümləsi yazılmışdı. Səfərlə Tanrıverdi bir müddət məktubu acı nəzərlərlə süzərək: “Yazıq Qurban, məktub yetişmədi”, – deyə sızıldadılar.

https://www.youtube.com/watch?v=Qaa3ED9PC4M

**Ümumdünya Poçt Günü münasibətilə kitabxanada təşkil olunmuş konfransın planı:**

**Məqsəd:**Şagirdlərdə poçt xidmətinin tarixi, cəmiyyətdə rolu və müasir dövrdə əhəmiyyəti haqqında biliklərin artırılması, məktub yazmaq mədəniyyətinin təbliği.

**1. Açılış**

- Dövlət Himni (tədbirin formatına uyğun olduqda)
- Aparıcının giriş sözü
- Ümumdünya Poçt Gününün mahiyyəti və məqsədi haqqında qısa məlumat

**2. Mövzu üzrə çıxışlar**

- Poçt xidmətinin yaranma tarixi
- Azərbaycanda poçt xidmətinin inkişafı
- Müasir dövrdə poçtun və kuryer xidmətlərinin rolu
- Məktub yazmaq mədəniyyəti və poçt markalarının əhəmiyyəti

**3. Müzakirə**
Müzakirə üçün suallar:

- Poçt xidməti niyə vacibdir?
- Elektron rabitə dövründə məktubun əhəmiyyəti qalırmı?
- Siz sonuncu dəfə nə vaxt məktub və ya açıqca göndərmisiniz?
- Gələcəyin poçt xidməti necə ola bilər?

**4. Şagirdlərin təqdimatları**

- Şeirlər və hikmətli kəlamlar
- "Bir məktubun hekayəsi" mövzusunda qısa çıxışlar
- Poçt mövzusunda hazırlanan təqdimatlar

**5. Sərgiyə baxış**

- Kitab sərgisi
- Poçt markaları və açıqcalar
- Şagirdlərin rəsm və əl işləri

**6. Viktorina**
Poçt tarixi və Ümumdünya Poçt Günü ilə bağlı qısa sual-cavab müsabiqəsi.



**Ümumdünya Poçt Gününə həsr olunmuş viktorina"Poçt haqqında nə bilirik?"**

- **I tur – Sual-cavab**
- Ümumdünya Poçt Günü hansı tarixdə qeyd olunur?

  A) 9 oktyabr; B) 1 iyun; C) 18 may; **Doğru cavab:** A

  Məktub və bağlamaları ünvanına çatdıran şəxs kimdir?

  A) Müəllim; B) Poçtalyon; C) Həkim; **Doğru cavab:** B

  Məktub göndərmək üçün zərfin üzərinə nə yapışdırılır?

  A) Şəkil; B) Poçt markası; C) Etiket; **Doğru cavab:** B

  Məktubun sahibinə çatması üçün nə düzgün yazılmalıdır?

  A) Tarix; B) Ünvan; C) Məktəbin adı; **Doğru cavab:** B

  Poçt vasitəsilə bunlardan hansını göndərmək olar?

  A) Məktub; B) Açıqca; C) Bağlama; D) Hamısını; **Doğru cavab:** D

  **II tur – Doğrudur, yoxsa yanlış?**

Poçtalyon məktubları ünvanlara çatdırır. **(Doğru)**

Məktub göndərmək üçün ünvan yazmağa ehtiyac yoxdur. **(Yanlış)**

Poçt markası poçt göndərişinin ödənişini göstərir. **(Doğru)**

Poçt yalnız məktub göndərmək üçündür. **(Yanlış)**

**III tur – Tapmacalar**

Özü danışmaz, xəbər gətirər,
Uzaqdan gəlib sevinc yetirər.
**Cavab:** Məktub

Çiynində çanta, yolu çox olar,
Xoş xəbəri ev-ev dolaşdırar.
**Cavab:** Poçtalyon

**IV tur – Sürətli suallar**

Poçt işçisi necə adlanır? *(Poçtalyon)*

Məktub hansı əşyanın içində göndərilir? *(Zərf)*

Məktubun üzərinə nə yazılır? *(Ünvan)*

Poçt şöbəsində başqa nə göndərmək olar? *(Bağlama)*

**Yekun**: Ən çox düzgün cavab verən komanda və ya şagird **"Ən bilikli poçt dostu"** diplomu ilə mükafatlandırılır.

**Poçt xidmətindən bəhs edən cizgi filmlərinin kitabxanada nümayişi:**



(Poçtalyon Peçkin) https://www.youtube.com/watch?v=v5qxwYGDEHs

**"Prostokvaşinonun qayıdışı" cizgi filmi**



"Prostokvaşinonun qayıdışı" cizgi filminin "Gülərüz süd" adlı yeni seriyası "Soyuzmultfilm"in "YouTube" kanalında yerləşdirilib. Filmin rejissoru Rusiya animasiya festivalının mükafatçı Sofya Kravtsovadır. Filmin yeni 14-cü seriyasında Peçkin adlı poçtalyon rəhbərliyin tapşırığı ilə birdən-birə gülməyə başlayır. Bu ərəfədə Fyodor əmi, Şarik və Vera Pavlovna soyuq dəymiş Tama Tamanın müalicəsi ilə məşğul olurlar. Kinostudiyanın mətbuat xidmətindən verilən məlumatda göstərilir ki, növbəti seriyada hələlik sirr saxlanılan yeni epizodik qəhrəman yaranacaq. Tama Tamanın ətrafında qurulan süjet xətti Prostokvaşino dünyasında çəkilən sonuncu yeni qəhrəmanı deyil. Artıq növbəti epizodda yeni personajın gəlişi gözlənilir. Növbəti iki ildə filmin yaradıcıları 30-a yaxın yeni seriya buraxmağı planlaşdırırlar. Bu filmdə qəhrəmanların yeni səslərlə dublyaj olunduğunu görmək olar. Filmin yaradıcıları köhnə seriyalardakı şəkil çəkmə texnikasını qorumağa çalışsalar da, süjet xəttini müasirləşdiriblər.

**Poçt haqqında tapmacalar**



Qanadım yoxdur, uçaram,
Xəbər aparıb çatdıraram.
Zərfin içində gizlənərəm,
Məni hamı səbirsizliklə gözləyər.
Cavab: Məktub
Çiynimdə çanta, yolum uzaq,
Hər evə gedərəm ayaq-ayaq.
Sevinc, xəbər mənlə gələr,
Məni hamı hörmətlə bilər.
Cavab: Poçtalyon
Kiçicikəm, amma dəyərim var,
Zərfin üstündə yerim var.
Mən olmasam, yolum çətin,
Kiməm görək, tapın məni.
Cavab: Poçt markası



Ağ evim var, ağzım bağlı,
İçimdə sözlər saxlı.
Açan kimi xəbər çıxar,
Kiməm mən, de görüm?
Cavab: Zərf
Mən olmasam, yol tapılmaz,
Məktub sahibinə çatmaz.
Küçə, şəhər, ev göstərər,
Kiməm mən?
Cavab: Ünvan
Məni yazar balaca əl,
Oxuyanda olar gözəl.
Sevinc, salam gətirərəm,
Uzaqları yaxın edərəm.
Cavab: Məktub



Qapını döyər, gülər üzlə,
Xəbər gətirər hər bir sözlə.
Çantasında çox sirr olar,
Kimdir bu?
Cavab: Poçtalyon



Balacayam, rəngarəngəm,
Zərfin üstündə bəzəyəm.
Ödənişi mən göstərərəm,

Kiməm mən?

Cavab: Poçt markası

Ədəbiyyat siyahısı:


İnternetdə:

https://525.az/news/177666-9-oktyabr-umumdunya-poct-gunudur

https://www.facebook.com/100064782966037/posts/%C3%BCmumd%C3%BCnya-po%C3%A7t-g%C3%BCn%C3%BC-%C3%BCmumd%C3%BCnya-po%C3%A7t-ittifaq%C4%B1n%C4%B1n-%C3%BCpi-xiv-konqresinin-q%C9%99rar%C4%B1-il%C9%99-18/5679829912111764/